BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 *Humanitar elmlər seriyası* 2015

## ƏDƏBİYYATŞÜNASLIQ

**47.82.10**
**UOT 82-1**

# TEYMUR ELÇİN İCTİMAİ XADİM KİMİ

**İ.S.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***Ifrat.eliyeva@mail.ru***

*XX əsrin 60-cı illərində poeziya aləminə gələn gənc şairlərdən biri də Teymur Elçin olmuşdur. Onun poeziyası ilk illərdən ədəbi mühitdə maraqla qarşılanmışdır. Uşaq psixologiyası, onların hər birinin fərdiliyi daima onu düşündürmüş, heç təsadüfi deyil ki, şair şeir və poemalarını kiçik və orta yaşlı uşaqlara həsr etmişdir. Məhz şairin bu mövzuda qələmə aldığı əsərləri mövzu, ideyası və sənətkarlıq xüsusiyyətindən bəhs olunur.*

**Açar sözlər:** dünya, vəzifə, tarix, çocuq, fərq

Qədim tarixi keçmişi olan Qarabağ torpağı çox sayda söz ustadları yetirmişdir. Bunlardan biri də XX əsr poeziyasında özünəməxsus yaradıcılığı ilə seçilən görkəmli ictimai xadim, şair Teymur Elçindir.

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ (1).

Çoxlarınızın gözəl bildiyi bu dördmisralı bayatını misal gətirməkdə məqsəd ötən Şuşalı günlərimizi, qəm-kədərdən uzaq olan gənclik illərimizi aramaq, axtarmaq, Şuşalı anlarımızı yad etməkdir.

... Şuşanın sərt təbiəti, qara buludlardan tökülən yumurta kimi doluları, ilan kimi göydə qıvrılaraq dəhşətli gurultu qoparan şimşəkləri, bir az sonra gözəl günəşi və bülbüllərin cəh-cəh vurması məndə yatmış duyğuları oyatdı. Aydın gecələr otağa çəkilərək təkbaşına oturaraq bu dərin sirləri öyrənmək istəyirdim.

Mənə belə gəlir ki, təbiət hər bir insana bir vergi verir, həyatda məqsəd bu vergini dərk edib, inkişaf etdirməkdir. Mən də insan olaraq bunun bir vergi olduğuna əmin idim. Yalnız bu vergini tapmalı idim. O zamandan başlayaraq

özümün hər bir hərəkət və həvəsimi öyrənməyə başladım. Ədəbi mühitə yenicə atılmağa başlayan, daim hər şeyin sirrini öyrənməyə can atan bu yeniyetmə gənc gələcəyin görkəmli ictimai xadimi Teymur Elçin idi. Bu məqsədlə mən bir ziyalı kimi şair və ictimai xadim Teymur Elçinin mənalı həyat yolunu ətraflı öyrənərək məhz məruzəmi bu ətrafda cəmləşdirməyə çalışmışam.

Sənətşünas Firudin Şuşinski Şuşa haqqında yazdığı irihəcmli əsərində göstərir ki, Şuşada 200-dən çox nəhəng adamlar, o cümlədən musiqiçilər, bəstəkarlar, şairlər, yazıçılar, ən ümdə isə Üzeyir Hacıbəyov kimi böyük bəstəkarı xalqına, elinə ərməğan etmişdir. Bu 200 nəfər söz ustadları içərisində Teymur Elçinin adı və soyadı böyük fəxarətlə çəkilir.

Teymur Süleyman oğlu Əliyev 1924-cü il mart ayının 28-də Qarabağın döyünən ürəyi, şah damarı sayılan Şuşa şəhərində anadan olmuşdur. Onun ana tərəfindən babası Məşədi Rəhim ailənin yeganə övladı olduğu üçün anası Pəri xanım onu erkən yaşlarından evləndirmək qərarına gəlir. Pəri xanım gözqulaqda olur, ürəyinə yatan, ailə qədri bilən, əsil-nəcabətli bir ailənin tərbiyəsini görmüş bir qız arzulayır. Arzusu çin olur. Bu gözəl-göyçək qız, Qızbəs görkəmli bəstəkar Fikrət Əmirovun bibisi, mahalda çox sevilən ağılı, kamalı ilə seçilən gənclərdən biri idi. Qısa bir müddətdə izdivac baş tutur. Qızbəs xanım qayınanasının, bütün ailə üzvlərinin sevimlisi olur. Qızbəs xanım ailəyə yeddi övlad bəxş edir. Bu övladlardan biri də gələcəkdə Teymur Elçinin anası Hafizə xanım olmuşdur. Teymur Elçinin atası Süleyman kişi Hafizə xanımla ailə qurur və onların da 4 qızı və bir oğlan övladı ailəyə sevinc gətirir. Ailənin əsas arzu və məqsədi övladlarına təhsil vermək, cəmiyyət üçün əsil vətənpərvər övlad yetişdirmək idi. İllər ötür. Teymurgilin ailəsi 1931-ci ildə (Teymurun 3 yaşı olanda) Bakıya köçür. Onları əhatə edən insanlar, qohum-qonşu Süleyman kişinin övladlarından ağız dolusu ilə danışır, bu uşaqların hər biri ədəb-ərkanına, sadəliyinə, təhsilə olan marağına görə hamının sevimlisi olurlar. Ailənin ən çox fəxr etdiyi, gələcəyinə böyük ümid bəslədikləri Teymur tez bir zamanda mətbuatda çıxış etməyə başlayır. 14 yaşından imzası tanınan balaca şair ədəbi ictimaiyyətin diqqətini cəlb edir. Şair Əsəd Əliyev "Balaca şair" adlı yazısında deyir: 13 yaşlı şair Teymur (2). Onu mən bu il birinci dəfə ("Yeni yol" qəzeti, 1937, 6 sentyabr) Bakı Xalq Maarif Şöbəsinin Buzovnadakı təhsil əlaçıları lagerində görmüşdüm. O, redaksiyaya gəlmişdi. Əlindəki bir dəstə kağızı mənə uzatdı. Bu kağızlara uşaq ruhunda, uşaq ruhuna uyğun şeirlər yazmışdı: "Çapayev", "Staxanovçu", "Qızıl əsgər" və s. Sual verdim. Şeir yazmağa səni nə vadar edib? Vətənim! Şaxmatda, damada, tansda usta idi. Yaxşı şəkil çəkirdi. Mən ona yenə bir sual verdim. Nişana ata bilərsənmi? – Bəli, ata bilirəm dedi, bununla kifayətlənməyib dedi: – Voroşilov (SSRİ Nazirlər Sovetrinin sədri) kimi ata bilməsəm də, gələcəkdə onun kimi atacağam".

Teymur 17 yaşında olarkən əmək fəaliyyətinə "Gənc işçi" (sonralar "Azərbaycan gəncləri", 1941-ci ildə) qəzetində başlayır.

Orta təhsilini Bakının 132 №-li məktəbində alan gənc Teymur 1941-ci ildə təhsilini başa vurduqdan sonra sənədlərini Azərbaycan Dövlət Universite-

tinin filologiya fakültəsinə verir və tezliklə onun tələbəliyi Zaqafqaziya ordusunda kursant xidməti ilə əvəz olunur. 1941-ci ildə Teymurun atası Süleyman kişinin qəflətən vəfat etməsi ailəni sarsıdır. Ailəni dolandırmaqdan ötrü Teymur "Molodej Azerbaydjana" qəzetində az maaşlı işə düzəlir. İşləməsinə baxmayaraq o, ruhdan düşmür. Lakin gözlənilmədən müharibənin başlanması Teymurun görəcək işlərinin yarımçıq qalmasına səbəb olur. O, müharibədə iştirak etmək məqsədilə Sumqayıtda və Tibilisidə hazırlıq kursları keçir. Onu Zaqafqaziyanın atıcılıq diviziyasına komandir müavini vəzifəsinə göndərirlər. Hərbi hissədən qayıtdıqdan sonra Teymur Elçin universitetdə təhsilini başa vurur və komsomol işinə keçir. 21 yaşında olarkən Teymur Elçin Azərbaycan Pedaqoji Universitetinin komsomol komitəsinin katibi, ən müxtəlif rəhbər vəzifələrində çalışır, hətta Bakı Komsomol Komitəsinin katibi, komsomolun Mərkəzi Komitəsinin təbliğat şöbəsinin müdiri, "Azərnəşr"in siyasi-ictimai ədəbiyyat şöbəsinin müdiri, Radio Komitəsinin müavini, Nazirlər Sovetinin nəşriyyat qrupunun rəhbəri vəzfiələrinə qədər yüksəlir.

T.Elçin 1957-ci ildə Dövlət Teleradio Verlişləri Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilir və bu vəzifədə 1964-cü ilədək fəaliyyət göstərir. 1964-1965-ci ilədək T.Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təbliğat və təşkilat şöbəsinin müdiri vəzifəsinə təyin olunur. 1975-ci ildə (Nazirlər Sovetinin) Azərbaycan Mədəniyyət nazirinin müavini vəzifəsinə dəvət olunur və bu vəzifədə 1990-ci ilədək işləyir.

...Əqidəsinə, mövqeyinin doğru olmasına möhkəm imanı olan səmimi və son dərəcə namuslu həyat tərzi ilə seçilən Teymur müəllimlə tanış olan adamlar ilk dəqiqədən onun təsiri altına düşürdülər və bu gün onun haqq dünyasına qovuşduğundan 22 il ötdüyündən sonra da həmin cazibədə yaşayanlar az deyil. Olduqca pak, halal qazancla qane olan bir insan idi Teymur müəllim. Uzun müddət komitə sədri, Mərkəzi Komitənin aparıcı şöbələrinin müdiri, nazir müavini işləmiş bu nəfsi tox adamı nə tutduğu yüksək vəzifələr, nə də ki, həmin vəzifələrdən irəli gələn maddi xeyir əldə etmək imkanları harama əl uzatmağa vadar edə bilmədi. On il Dövlət Radio və Televiziya Verlişləri Komitəsinin sədri vəzifəsində çalışdı. Burada "çalışdı" sözünü cümləni tamamlamaq xətrinə işlətmirəm. Teymur müəllimlə birlikdə televiziyamızın təməl daşını qoyanların bəziləri bu gün də sağdırlar və onlar təsdiq edə bilərlər ki, o vaxt televiziyanın texniki və maliyyə imkanları indiki ilə müqayisə olunmayan dərəcədə cüzi olsa da, verilişlərin bədii və əxlaqi-səviyyələrinin yüksəkliyi bu günün nisbətində əks münasib təşkil edirdi.

Teymur Elçin bütün şüurlu həyatın, gənclik illərini ən məsul vəzifələrdə keçirib. Bu əlbəttə, Teymur müəllimə olan inamdan, əməksevərliyindən, insanlara qayğı ilə yanaşmasından, ən əsası isə dünya malında gözü olmamasından, nəfsinin bütövlüyündən irəli gəlirdi.

Aşağıdakı cümlələrdə əsas diqqəti uşaqlıqdan özünə halallıqla gün-güzəran qazanan, həyatın ən çətin sınaqlarından öz gücü, bacarığı, parlaq istedadı ilə çıxan, pillə-pillə irəli gedən 23-24 yaşlarında Azərbaycan Dövlət Nəşiyya-

tında siyasi şöbənin müdiri işləyən, 25-26 yaşlarında Bakı Partiya Komitəsinin katibi seçilən, 28 yaşında Azərbaycan KP MK-da şöbə müdirinin müavini, 32 yaşında Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri olan, sonralar Azərbaycan KP MK-nın ideoloji şöbənin müdiri və Mədəniyyət Nazirinin müavini vəzifəsində çalışan T.Elçin əslində şair N.Həsənzadənin dediyi kimi: "Bir şair ömrünü yaşatmaq üçün, bir insan ömrünü girov qoymuşdu". Əlbəttə mən bura qədər gözəl insan, xeyirxahlığı ilə çoxlarına nümunə oluna biləcək hörmətli Teymurun ictimai-siyasi fəaliyyəti barədə qısa şəkildə olsa da məlumat verməyə çalışdım.

Yuxarıda qeyd etdiyim kimi T.Elçin çox erkən yaşlarında ömrünü-gününü şeirə, sənətə bağlamış və əsərlərinin çoxu körpə balalara – uşaqlara həsr olunmuşdur.

Qeyd etmək lazımdır ki, T.Elçin məsul vəzifələr daşımaqla yanaşı bir şair kimi poeziya aləmindən ayrılmamış, sevimli körpə balalarını unutmamış, 1955-ci ildə ilk əsəri olan "Qar qız" şeiri ilə gəlmiş, poetik yaradıcılığı ilə gənc nəslin maariflənməsinə, nəcib insani sifətlər, vərdişlər əxz etməsinə müvəffəq olmuşdur. Ədəbiyyatımızın, mədəniyyətimizin bütün sahələrinə eyni qayğı və həssaslıqla yanaşmışdır.

Bildiyimiz kimi körpə uşaqlara şeir yazmaq ən çətin və eyni zamanda məsuliyyətli bir işdir. Xalq şairi S.Vurğun uşaqlar üçün yazmağın çətin və məsuliyyətli bir iş olduğunu "Balalarımız üçün gözəl əsərlər yaradaq" məqaləsində yazırdı: "Uşaq insandır! Onun sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur" (3). Uşaq dilinin psixologiyası haqqında ən münasib fikri şair özü deyib: "Yazan çoxdur. Elə yaz ki, mahnın sözsüz olmasın. Deyən çoxdur, elə de ki, sözün duzsuz olmasın, Baxan çoxdur, elə bax ki, Qəlbin gözsüz olmasın". Bədii ədəbiyyatın dilində birinci şərt budur – duzlu danışmaq. Bu duzluluq qayə faktoru ilə birləşəndə sənət etalonu yaranır. Bədii dildə duzu sevən şair sənətdən də bunu tələb edir. T.Elçin həmin sevib-sevilmək hisslərinin cəmiyyətin ən məsul xilqəti olan balalara, uşaqlara aşılamaq yolunu tutur" (4).

T.Elçin xeyli sayda – "Yaşar, Nur nənə" (1962), "Din-dan" (1964), "Bahar, adlar, uşaqlar" (1966), "Sözlər, nəğmələr, nağıllar, laylalar" (1969) "Şəkərin duzun" (1977), "Torpağın nəğməsi" (1979), "Laylalar" (1971) uşaq şeirlərinin müəllifidir.

Teymur müəllimlə uzun müddət bir yerdə çalışanlar, onunla yaxından təmasda olanların hər biri bu gözəl ziyalının insanpərvərliyindən, Vətənə, torpağa bağlılığından, hamıya qayğı ilə yanaşmasından ürək dolusu danışırlar. İşlədiyi otağın qapıları hamının üzünə taybatay açıq idi. Ömrü boyu əzəmətli binaların qoynunda, "meşin qapılar, zirehllənmiş qapılar, katibə ilə, milislə çəpərlənmiş qapılar" arxasında gizlənən bəzi dibçək məmurlardan fərqli olaraq T.Elçin bu mühitdə darıxan, bağrı çatlayan, qəfəsə salınmış bülbülə bənzəyirdi. O, ürək adamı idi. Qəlbinin gözləri ilə bu dünyaya baxırdı. Bayaq dediyim kimi qapıları taybatay açıq idi, hamını dindirirdi, dərdinə qalırdı. Bu onun

nəslindən-nəcabətindən, ziyalılığından, daxili mədəniyyətindən, yüksək aristokratlığından irəli gəlirdi. Teymur müəllimin ən ümdə cəhətlərindən çox danışmaq olar. Onlardan bəzilərini sizin diqqətinizə çatdırmaq istərdim. MK-nın Təbliğat-Təşviqat şöbəsinin müdiri işləmiş T.Əliyevin yaşı hələ 50-yə çatmasa da, sözünü deyə bilən və həmin sözü eşitdirməyi bacaran dövrünün ağsaqqallarından sayılırdı. O zaman Bakıya təftişə gəlmiş Sov. İKP MK katibi Leonid İlyiçovla Teymur Elçinin mübahisəsi uzun müddət dillər əzbəri oldu. Yüksək qonağa Kirovun abidəsinin altındakı "Dostluq" restoranında ziyafət verilirdi. Məclisin, necə deyərlər qızğın vaxtında Leonid İlyiçov gözlənilmədən bir sıra tənqidi fikirlərini açıqladı, görkəmli inqilabçı Kirovun abidəsi altında restoranın olmasına etik qaydalara sığmayan hal kimi irad tutdu. Teymur müəllim bu sualı cavabsız qoymadı. Aramla dedi: "Bəs, şəxsən sizin və MK-nın Rəyasət Heyətinin digər üzvlərinin ildə iki dəfə Leninin mavzoleyinin üstündə parad qəbul edib şənlik etməyiniz nə dərəcədə etik normalarla bir araya gəlir" – cavabı İlyiçovun tonunu alçaltdı, restoranın bağlanmasını gündəlikdən çıxartdı.

İkinci bir fikir: Kremlin ən yüksək dairələrinin sevimlisi olan məşhur şair Rəsul Həmzətovun da Bakıya gəlişi haqqında danışmağa dəyər. O vaxt şairi Bakıya yaradıcılığında yeni ilham mənbəyi axtarışı deyil, "Avariya Respublikası ideyası" gətirmişdi. Azərbaycanın şimalında yaşayan avarların guya "ülvi arzularının hesabına" Avar Respublikasının yaranmasına razılıq istəyirdi. Respublika rəhbərliyi adından ona cavab verən Teymur müəllim həmin təklifi təkzib edən bir kəlmə söz işlətdi: "Avariya təhlükəli sözdür" cümləsini işlətdi və məsələ birdəfəlik bağlandı.

Üçüncü fakt:

İllər keçdi, Mədəniyyət nazirinin müavini vəzifəsində işlədiyi dövrdə Teymur Elçin bir daha mərkəzlə qarşı-qarşıya durmalı oldu. SSRİ Mədəniyyət Nazirliyinin kollegiya üzvü, Kitabxanaçılıq idarəsinin rəisi Serov başda olmaqla geniş tərkibli komissiya Azərbaycana gəlmişdi. Paytaxtın kitabxanaları yoxlandıqdan sonra heyət rayona düşməli oldu. O zaman Bakıdakı müəssisələrdə dəftərxana əsasən rus, rayonlarda isə Azərbaycan dilində aparılırdı. Məhz bu amil komissiyanı təmin etmədi və arayışda öz əksini tapdı. Bir müddət sonra SSRİ Mədəniyyət Nazirliyində yoxlamanın nəticələri müzakirə olunmalı idi və məsul işçiləri Moskvaya çağırırdılar. Sovet İKP MK Siyasi Büro üzvlüyünə namizəd, nazir Pyotr Demiçevin sədrliyi ilə keçirilən kolleksiya iclasının gedişi maqnitofon lentinə yazıldı və bizim nazirliyin kolleksiyasında dinlənilib müzakirə edildi. Təsəvvür edin, ölkənin ali partiya rəhbərlərindən birinin qarşısında sənədlərin Azərbaycan dilində aparılmasına tutulan irada sıravi kommunist Teymur Əliyev belə cavab verdi: "Diqqətinizə çatdırmaq istəyirəm ki, Azərbaycan müstəmləkə deyil, o, SSRİ-nin tərkibində müstəqil respublikadır, onun himni, milli dili var və həmin dildən istifadə etmək hüququmuzu Konstitusiyamız təmin edir".

Dördüncü fakt: Ömrünün sonunadək çox ciddi dövlət, partiya-sovet təşkilatlarında çalışmış T.Əliyev təkcə "yuxarıların yox, həm də aşağıların – sadə

xalq kütlələrinin, poeziya və teatr sevənlərin mərkəzində olub. O.Süleymenovun dediyi kimi "Harda ki, bir çətin, əmələgəlməz görünən bir iş, vəzifə varmış dərhal Teymur Əliyev yada düşərmiş. Xarici ölkələrə göndərilən nümayəndə heyətinə – rus olmayan başçı gərəkəndə kim? Əlbəttə başı-ayağı bilinməyən bir ölkənin üzünü bütün göstəriciləri ilə ağ edən Teymur Süleymanoviç. Onun səsi beynəlxalq sənət, incəsənət toplantılarından, poeziya, folklor festivallarından, televiziya, radio, mətbuat, tərcümə işləri ilə əlaqədar rəsmi tədbirlərdən də gəlirdi".

Yaşadığımız həyatda Teymur müəllim bu gün aramızda olmasa da onun əqidəsi, xeyirli əməlləri bizimlədir. Bir vaxt çalışdığı Azərbaycan Televiziya Verilişlərinə aparan küçə onun adını daşıyır, ondan sonra ömür-gün yoldaşı Leyla xanım uzun müddət Bakı Dövlət Universitetində Siyasi İqtisad fənnindən dərs demişdir. Onun kitabları bu gün də oxunur, sözlərinin müəllifi olduğu mahnılar həvəslə dinlənilir.

### ƏDƏBİYYAT

1. Bayatılar. Bakı: Şərq-Qərb, 2005.
2. Əliyev Ə. Balaca şair. Bakı, "Yeni yol" qəzeti, 1937.
3. Vurğun S. Seçilmiş əsərləri. 6 cilddə, V c., Bakı: 1972.
4. Hacıyev T. Şeirimiz, nəsrimiz, ədəbi dilimiz. Bakı: Yazıçı, 1990.

### ТЕЙМУР ЭЛЬЧИН КАК ОБЩЕСТВЕННЫЙ ДЕЯТЕЛЬ

**И.С.АЛИЕВА**

### РЕЗЮМЕ

В 60-х годах XX века одним из молодых поэтов, пришедших в мир поэзии был Теймур Эльчин.

Автор настоящей статьи целиком и полностью анализировал творчество Теймур Эльчина.

**Ключевые слова:** мир, должность, история, малыш, разница

### MUR ELCHIN AS A PUBLIC FIGURE

**I.S.ALIYEVA**

### SUMMARY

One of the young poets of the world poetry in the 60s was T.Elchin. His poetry was very interesting in the literary environment. Child psychology, individualism of each child always interested him and, it is no coincidence that poetry and poems dedicated to young and children.

**Key words:** world, task, date, child, difference.